# “O iki qadınla özümü evli kimi hiss edirəm”

## Amil Amal: ”Dövlət pul ayırmasa, mənim kimi rejissorlar kənarda qalacaq, milli-mənəvi dəyərlərimiz məhvə doğru gedəcək”



**Təhsil, dünyagörüşü və həyata baxış bucağı... 31 yaşı olmasına baxmayaraq fərqli düşüncəyə sahibdir. Çoxluqdan biri deyil. Ümumrusiya Dövlət Kinematoqrafiya Universitetinin (VGİK) Kinorejissorluq və kinodramaturgiya fakültəsində iki illik ali kursda təhsil alaraq, oranı qırmızı diplomla bitirib.**

Təhsilini başa vurduqdan sonra uğur onu addım-addım izləyib. Moskva şəhərində keçirilən ”Ümumrusiya Artkino qısametrajlı müəllif filmləri” kinofestivalında ”Neft şəhərinin sakini” adlı filmi ilə ”Münsiflərin xüsusi mükafatı” nominasiyası üzrə qalib olub. Bir-birinin ardınca qazandığı mükafatlar onu beynəlxalq arenaya çıxarıb. Belə ki, Türkiyənin Antalya şəhərində keçirilən ”Rotary” Film Festivalında gənc kinorejissor Amil Məmibəyli Azərbaycanı fəxri qonaq qismində təmsil edib və kinomuz haqqında Akdeniz Universitetində çıxış edib. ”Qara Bağ” filmi ilə gənc rejissor Çində keçirilən Birinci Asiya Beynəlxalq Qısametrajlı Filmlər Festivalının xüsusi mükafatına layiq görülüb. 2016-cı ildə Qırğızıstanda film festivalında iştirak edib. 2017-ci ilin dekabr ayında Türkiyənin Ankara şəhərində keçirilən altıncı ”Hak-İş Kısa Film Yarışmasında” 124 ölkədən 5404 film arasından seçilərək ”Qara Bağ” filmi ilə ”Ən yaxşı film” nominasiyasında birinciliyə layiq görülüb. Bundan əlavə, ”Ən yaxşı kişi aktyor” nominasiyasını isə ”Qara Bağ” filminin baş rol ifaçısı aktyor Elxan Abbasov qazanıb. Hər iki mükafatı rejissora və aktyora Türkiyənin Mədəniyyət naziri Numan Kurtulmuş təqdim edib. Rejissoru olduğu ”Son seçim” filmi İngiltərədə keçirilən ”First-Time Filmmaker Sessions” onlayn film festivalında izləmə siyahısına seçilib. Yəni danışmağa dili də var, dilçəyi də.

**- Niyə Amal?**

- Kulis.az-da mütəmadi olaraq Məmibəyli, Məmiyev soyadı ilə minimalist şeirlərim dərc olunurdu. Məmibəy mənim ulu babamdır, babamın babasının atasıdır, bu adı təxəllüs olaraq götürmüşdüm. ”Kulis”in baş redaktoru, yazıçı Şərif Ağayar təklif etdi ki, özümə maraqlı bir təxəllüs tapım. Çox düşünsəm də tapa bilmədim. Nəticədə Şərif bəy mənə çox variantlar təklif etdi, onların içərisindən Amalı bəyəndim, yazıçı Şərif bəy özü də bunu çox bəyəndi və mənə böyük uğurlar qazandıracağını bildirdi.

**- Bəs amalınız nədir?**

- Bu barədə bəzən özüm də düşünürəm...

**- Cavab tapa bilirsiniz?**

- Hələ ki, dəqiq cavabım yoxdur. Çünki amal anlayışı mənim üçün genişdir. Tək bir fikirdən ibarət deyil. Əsas amalım yaxşı incəsənət nümunələri yaratmaqdır. 31 yaşım olmasına baxmayaraq, subayam. Kino və ədəbiyyatı qadın kimi təsəvvür etsək, o iki qadınla özümü evli kimi hiss edirəm. Həmin qadınlardan cəmiyyətə və dünyaya bəxş etmək istədiyim övladlar - yəni yeni şeir nümunələri və filmlər vermək fikrim var. Hətta deyərdim, mart ayında çapdan çıxmış minimalist şeir kitabımı və bu ayın sonlarında bitirəcəyim ”Titrəmə” qısa filmini artıq doğulmuş övladlarım hesab edirəm.

**- Özünüzəməxsus iziniz varmı?**

- Başlamışam. ”Evə gələndə sevgi al” kitabı Azərbaycanda çap olunmuş ilk minimalist şeir kitabıdır. Buna kimi bəzi minimalist şeir nümunələri olsa da, sırf bir toplu olaraq kitab halında beləsi olmamışdı. Kitabın bir ilk olmasından daha çox, içindəki şeirlərin həmişə oxunacağına və tarixdə qalacağına inanıram. Oxuyanlar azdır, amma oxuyanlar inandığım, intellektual səviyyəsi çox yüksək olan elm və incəsənət adamlardır ki, bu da məni çox sevindirir. Bundan başqa son çəkdiyim ”Titrəmə” filminə çox güvənirəm. Qısametrajlı olmasına rəğmən, milli kinomuzda öz dəsti xət-



tini və izini qoyacağına inanıram. Ancaq bütün bunlara baxmayaraq, milli kinematoqrafiyada bu günə kimi gördüyüm işləri, uğurları həyatımın və yeni başladığım filmoqrafiyamın ekspozisiyası, bədii müqəddiməsi adlandırardım. Görəcəyim böyük işlər və böyük uğurlar hələ qabaqdadır.

**- Ümumrusiya Dövlət Kinematoqrafiya Universitetində təhsil almaq (VGİK) sizə nə qazandırdı?**

- Bu təhsil ocağı mənə çox şey qazandırdı. Bakalavr təhsili aldığım Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən öyrənmədiklərimi məhz orada öyrənmişəm. Düzdür, orada da bir neçə müəllimlərim var idi ki, onlardan da çox şey öyrənmişdim. Məsələn, kinorejissor Cəmil Quliyev, ssenarist Ədalət Ziyadxanov kimi incəsənət adamlarının qabağıma çıxmağı, mənim üçün böyük bir şans idi. İstər kinoda, istərsə də ədəbiyyatda, düşünürəm ki, öncə istedaddır. Ancaq istedadın yanında təhsil yoxdursa, alınmayacaq.




**- VGİK-dən təhsil alıb, geri döndükdə hansı ideyalarınız vardı və o ideyalarınızı bugünkü kino mühitinə uyğunlaşdıra bildinizmi?**

- Moskvadan döndükdən sonra 2 il işsiz qaldım. İlk dəfə ANS telekanalında işlədim. Orada 22 seriyalıq bir serial və bir sənədli film çəkdim. 2016-cı ildə ANS bağlandı. Ancaq qısa bir vaxt olsa da ANS mənə böyük bir məktəb oldu. 2018-ci ildə öz hesabıma ”Son seçim” adlı qısametrajlı film çəkdim. Tammetrajlı və qısametrajlı bir neçə ssenarilər yazdım. Bir sözlə, o yaradıcı mühit olmamağına rəğmən, dayanmamağa çalışdım.

**- Azərbaycan kinosu sizin ideyalarınıza hazır idimi?**

- Mən burda özümü şişirdib demirəm ki, əjdahayam, gəlib dağı dağ üstünə qoyacaqdım. Ancaq bir reallıq da vardı ki, Azərbaycan kinosunun özü də buna hazır deyildi. Azərbaycanda kino komandası yox dərəcəsindədir. Film prodüseri məktəbimiz yoxdur. Halhazırda kinostudiyada bir film çəkmişəm, titrlər da hazırlanır, ancaq hələ də bilmirəm ki, prodüser kimi kimin adını qeyd edim. Bizdə çəkilən filmlərdə kinostudiyanın direktoru prodüser olur. İmzamızın olduğu hər şeyin ən yaxşısını etməyə çalışırıq. Prodüseri isə bunlar düşündürmür. Elə prodüser görməmişəm ki, ssenarini oxusun və desin ki, buna sponsor tapıb film çəkək. Desin ki, bu ssenari festivala gedər, qalib də gələr. Bunu təhlil edən intellektual səviyyəli prodüserlərimiz yoxdur. Bütün bunları mən edirəmsə, niyə axı prodüser başqası olmalıdır?

**- Hazırladığınız məhsullar auditoriya üçün adekvatdır?**

- Bu, məni hələ də düşündürür. Məsələn, ”Qara Bağ” filmində dediyiniz kütləyə adekvat olmağı tam hesablamamışdım. Bu filmə rus rejissorları baxıb, qiymət verirdi. Təsəvvür edin, Rusiyanın tanınmış yazıçısı, şairi və ssenaristi Yuriy Arabov mənə qiymət verib, filmim haqqında fikir söyləyib və diplomumda imzası var. Bir sözlə, mən onu Azərbaycan baxış bucağından baxıb çəkə bilməzdim. Orda müəyyən səhnələrdə vətənpərvərlik kimi dəyərlər, bəli, özünü büruzə verirdi. Ancaq məncə, bunlar da olmalıdır. ”Qara Bağ” filmindən sonra çəkdiyim ”Son seçim” filmim kütləyə adekvat deyildi. Heç bir kütləyə hesablanmamışdı. ”Son seçim” büdcəsiz film idi. ”Qara bağ” filminin 40 min manata yaxın büdcəsi var idi. Bir neçə festivalda iştirak edib qalib olmuşdu. Bütün bunlara baxmayaraq, ”Son seçim” filmini də ”Qara Bağ”dan zəif hesab etmirəm.

**- Festivallarda iştirak etmədiyim dövrdəki Amillə indiki Amilin dünyagörüşü fərqlidir. Ondan sonra düşünməyə başladım ki, dünyagörüşü ilə dünyanı görmə arasında çox böyük fərq var. Səyahətçilərin bəziləri xarici pasportlarına getdiyi ölkələrinin möhürünü vurmaq, bəzən də, sadəcə olaraq, nələrsə kəşf etmək üçün dünyanı gəzirlər. Ancaq siz səyahət etmədən belə, mütaliə edərək nələrisə kəşf edə, yaxud səyahətə çıxa bilərsiniz.**

Festivalların isə önəmi çox böyükdür. Ən azı Ermənistanı çıxmaq şərti ilə bütün qonşu ölkələri və türkdilli dövlətləri gəzmişəm. Çingiz Aytmatovun vətənini görmək, onun məzarını ziyarət etmək, həqiqətən gözəl duyğulardır. Getdiyin ölkələrin milli yeməyini dadmaq, özünü əsil türk kimi hiss etmək fikirləri orda daha çox formalaşdırmışam. Beynəlxalq festivallarda iştirak etməklə, sən həm öz adına, həm də ölkən adına mədəni və ictimai proseslərdə birbaşa iştirak etmiş olursan. Mədəniyyətlərarası dialoqda iştirakçı olursan. Elə bir iştirakçı ki, bu, heç də diaspora nümayəndəsinin, hətta diplomatların gördüyü işdən geri qalmır. Bəlkə də elə an olar ki, onların gördükləri işdən daha çox iş görə bilərsən. Bundan başqa, festival rejissorlara, prodüserlərə qazanc əldə etmək üçün yaxşı bir vasitədir. Məsələn, Türkiyədəki birincilik mükafatına görə kifayət qədər yüksək olan məbləğ qazandım. Hər bir yaradıcı adamın beyninin yaratdığı məhsula qiymət verildikdə, o, həm maddi, həm də mənəvi olaraq güclənir.

**- Bəzən rejissorlar deyir ki, film festival üçün deyil, tamaşaçı üçün olmalıdır. Ancaq filmləri daha çox festivallarda dəyərləndirirlər. Sizcə, hansı fikir doğrudur?**

- Elə filmlər var ki, onlar həm festivala, həm də kütləyə hesablanıb. Misal üçün ”Oskar” mükafatına layiq görülən ”Parazit” filmi Şimali Koreya ilə Cənubi Koreyanın fərqli metaforalarını göstərir. Filmdə böyük mesajlar var. Həmin film həm kütlə, həm də festival üçün nəzərdə tutulub. Filmdə o qədər gözlənilməz döngələr var ki, insan baxdıqca heyran qalır. ”Qızıl orta” deyilən bir anlayış var ki, film çəkərkən onu tapmaq lazımdır. Ümumiyyətlə, ”festival filmləri” anlayışını qəbul etmirəm. Festivalda da münsif heyətinin hər biri öz ölkəsini təmsil edirsə, bunun özü müəyyən bir kütlə deməkdir. Film festivalda nümayiş olunursa, demək ki, kütlə qarşısına çıxarılır. Təbii ki, söhbət əsil film festivallarından gedirsə.

**- Necə yəni, deyirsiniz ki, bizdə qurşaqdan aşağı zarafatlarla çəkilən komediya filmlərini festivallar qəbul edər?**

- Onları film hesab etmirəm. Çünki onlar sənət işi deyil, kommersiyaya, pul qazanmağa və bayağı gülüşə hesablanaraq çəkilmiş filmlərdir.

**- Onlar özləri də bunu etiraf edirlər ki, çəkdikləri sənət üçün deyil.**

- Ancaq bunu hər kəs etiraf etmir. Elə nüanslar olur ki, həmin rejissorlar dolayısı ilə iş gördüklərini sanırlar. Düşünürlər ki, onların filmi müəyyən vaxt keçdikdən sonra ən azı ”Yol əhvalatı”, ”Bəyin oğurlanması” kimi filmlər kimi olacaq. Amma əsla elə deyil. O filmlərimiz milli-mənəvi dəyərləri özündə əks etdirirlər. Bəs bugünkü komediyalarımız nəyi əks etdirir? Sanki onlar kütlədən daha çox pul qazanırlar deyə, bizi ittiham edirlər deyirlər ki, baxın, biz bu filmlərlə pul qazanırıq, hətta dövlətə vergi veririk, dövlət buna görə sizə pul ayırmamalıdır. Ancaq burada əsas bir məsələ var. Dövlət pul ayırmasa, mənim kimi rejissorlar kənarda qalacaq, milli-mənəvi dəyərlərimiz məhvə doğru gedəcək, Azərbaycan filmləri beynəlxalq festivallara çıxa bilməyəcək.

**Xəyalə Rəis**